2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 7 fevral 2025-ci il tarixli 39 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri                                                                  8 fevral 2025-ci il

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Füzuli – Ağcabədi seçki dairəsindən Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Hacıyev Fəxrəddin Mərkəz oğlu 7 fevral 2025-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra — Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 4 fevral 2025-ci il tarixli 8/19 saylı Qərarını mübahisələndirərək, seçki dairəsinin Sarıcalı bələdiyyəsi üzrə 50, 53 və 58 saylı seçki məntəqələrində səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və bu barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Qabil Orucov həmin müraciəti araşdırarkən aşağıdakıları **müəyyən etdim:**

85 saylı Füzuli – Ağcabədi seçki dairəsindən Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Hacıyev Fəxrəddin Mərkəz oğlu müraciətində səsvermə günü həmin seçki dairəsi dairə seçki komissiyasının Sarıcalı bələdiyyəsinə seçki keçirilən 50, 53 və 58 saylı seçki məntəqələri üzrə total saxtakarlıq müşahidə olunduğunu, seçki qanunun tələblərinin aşkar və kobud şəkildə pozulduğunu, icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin müdaxiləsi nəticəsində seçkinin saxtalaşdıldığı iddia etmişdir.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlə əlaqə saxlanılıb, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

İddia edilən pozuntularla əlaqədar qeydə alınmış namizəd Hacıyev Fəxrəddin Mərkəz oğlunun şikayəti 85 saylı seçki dairəsinin dairə seçki komissiyası tərəfindən araşdırılmış, dairə seçki komissiyasının 4 fevral 2025-ci il tarixli 8/19 saylı qərarı ilə müraciət əsassız hesab olunaraq təmin edilməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq icraat materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Müraciətin araşdırılması təqdim olunmuş icraat materiallarını əhatə etmişdir.

Mərkəzi Seçki Komissiyasında aparılmış geniş, tam, hərtərəfli, obyektiv araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınan digər namizədlər (sözügedən bələdiyyə üzrə liderlər siyahısında olmayan) tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Aparılmış icraatla müəyyən edilmişdir ki, 85 saylı Füzuli – Ağcabədi seçki dairəsi dairə seçki komissiyası mövcud qərarla düzgün hüquqi nəticəyə gəlmiş, namizədin səsvermə günü baş verdiyi ehtimal edilən qanun pozuntuları ilə əlaqədar müraciətinə qanunla nəzərdə tutulmuş qaydada və müddətdə baxmış, o cümlədən maddi və prosesual hüquq normalarını düzgün tətbiq etməklə əsaslandırılmış qərar qəbul etmişdir.

Beləliklə, Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Hacıyev Fəxrəddin Mərkəz oğlunun müraciəti əsassız olduğundan təmin edilməməli və 85 saylı Füzuli – Ağcabədi seçki dairəsi dairə seçki komissiyasının 4 fevral 2025-ci il tarixli 8/19 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a əsasən **r ə y ə  g ə l d i m :**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Füzuli – Ağcabədi seçki dairəsində Sarıcalı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Hacıyev Fəxrəddin Mərkəz oğlunun 7 fevral 2025-ci il tarixli 39 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 4 fevral 2025-ci il tarixli 8/19 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov